2010-cu ilin avqust-2011-ci ilin sentyabr aylarını əhatə edən 14 aylıq təqaüd proqramında iştirak etmək arzusunda olan namizədlər:

- kənd təsərrüfatı sahəsi üzrə dövlət sektorunda çalışmalı, bu sahədə müvafiq bilik və bacarıqlara malik olmalı;
- ali təhsilli olmalı;
- ingilis dilini yüksək səviyyədə bilməli;
- Koreyada təhsili bitirdikdən sonra bu sahədə ən azı bir il müddətində çalışmaq imkanı olmalı ;
- əqli və fiziki cəhətdən tam sağlam olmalı;
- bu vaxta qədər Koreya hökumətinin təqaüd proqramlarında iştirak etməmiş olmalıdır.

İki mərhələli seçim prosesində namizədlərin sənədlərinə baxılacaq və müvafiq namizədlərlə müsahibə aparılacaqdır.

Proqramda iştirak etmək arzusunda olan namizədlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *KOICA ərizə forması;*
- *müvafiq ali təhsil müəssisəsinin ərizə forması;*
- *motivasiya (əsaslandırma)məktubu;*
- *CV;*
- *Tərcümeyi-hal;*
- *diplom və diplom əlavəsinin notarial qaydada təsdiq edilmiş surətləri;*
- *dil biliklərini təsdiq edən sertifikat (əgər varsa-TOEFL, IELTS və s.);*
- *əmək kitabçasının surəti (olduğu təqdirdə);*
- *3 x 4 ölçüdə iki ədəd fotoşəkil;*
- *namizədin və valideynlərinin şəxsiyyət vəsiqəsi və ya pasportunun surəti;*

**QEYD: ingilis dilində olmayan bütün sənədlər bu dilə tərcümə olunmalı və notarial qaydada təsdiq edilməlidir.**

Təqaüd proqramı haqqında ətraflı məlumat və ərizə formalarını http://www.hknu.ac.kr/web/eng/home internet səhifəsindən əldə edə bilərsiniz.

Proqramda iştirak etmək arzusunda olan namizədlər müvafiq sənədləri cari ilin 18 may tarixinə qədər Təhsil Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinə (K.Məhərrəmova; tel: 496-33-11; dax-248) təqdim etməlidirlər.